*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2* *ISSN 2663-4368*
*Səhifə: 88-92* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.2.88*

# Azərbaycan satirasının inkişaf meyilləri Kamran Məmmədovun araşdırmalarında

**Könül Hüseynova**
Odlar Yurdu Universiteti
E-mail: konull771@mail.ru

**Annotasiya.** Məqalədə professor Kamran Məmmədovun satira istiqamətindəki elmi axtarışlarının əsas prinsipial müddəaları təhlil hədəfi seçilmişdir. İlk olaraq alimin ədəbiyyat tarixçiliyi sahəsində araşdırmalarında konkret ədəbi şəxsiyyətlərin yaradıcılığına yönəli xüsusiyyətlər üzərində təfərrüatı ilə dayanılır.
Satiranın elmi-nəzəri baxımdan ədəbiyyatşünaslıqda mübahisə doğuran tərəfləri də məqalədə diqqət mərkəzində saxlanılan məqamlardandır. Belə bir yanaşmada Kamran Məmmədovun satira, xüsusən satirik şeirin Azərbaycan ədəbiyyatında yeri və mövqeyinin folklor mətnlərindən yazılı nümunələrə qədərki inkişaf təkamülü sistemli şəkildə nəzərdən keçirilir. Bu baxımdan müəllifin Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir, Baba bəy Şakir, Mirzə Baxış Nadim, Əliqulu Qəmküsar, Mirzə Əli Möcüz kimi şairlərin yaradıcılığında satiranın yeri və mövqeyi kimi yaradıcılıq məsələlərinə konseptual münasibəti müasir ədəbiyyatşünaslığın nailiyyətləri səviyyəsindən dəyərləndirilir.
Alimin Azərbaycan şeirində satiranın yeri və aparıcı mövqeyi ilə bağlı gəldiyi mülahizələrlə, elmi nəticələrlə yanaşı, bu təmayülün digər ədəbi növ və janrlarda – nəsr və dramaturgiya sahəsindəki inkişaf meyilləri də diqqət mərkəzində saxlanılır, aparılan təhlillər və nəzəri ümumiləşdirici müddəalar belə bir tədqiq müstəvisində araşdırmaya cəlb olunur.
**Açar sözlər:** satira, satirik gülüş, komizm, komik situasiya, gülüşün islahedici mahiyyəti, göz yaşı içərisində gülüş

**Məqalə tarixçəsi:** göndərilib – 05.09.2024; qəbul edilib – 18.09.2024

# The trends of development of Azerbaijani satire in Kamran Mammadov's studies

**Konul Huseynova**
Odlar Yurdu University
E-mail: konul1771@ mail.ru

**Abstract.** In the article, the primary provisions of Professor Kamran Mammadov’s scientific research on satire are selected as the focus of analysis. Firstly, the scientist's work in literary historiography emphasizes the characteristics of specific literary figures' creativity.
From a scientific-theoretical perspective, the controversial aspects of satire in literary studies are also highlighted in the article. This approach systematically reviews the evolution of Kamran Mammadov’s satire, particularly its place and role in Azerbaijani literature, ranging from folklore texts to written examples. In this context, the author's conceptual stance on creative issues, such as the role of satire in the works of poets like Gasim bey Zakir, Seyid Azim Shirvani, Mirza Alekber Sabir, Baba bey Shakir, Mirze Bakhish Nadim, Aligulu Gemkusar and Mirze Ali Mojuz is evaluated against the achievements of modern literary studies.
Alongside the scientist's insights and findings regarding the significance and leading role of satire in Azerbaijani poetry, the developmental trends of this tendency in other literary forms and genres such as prose and drama are also examined, incorporating analytical and generalizing theoretical propositions at this level of research.
**Keywords:** satire, satirical laughter, comedy, comic situation, corrective nature of laughter, laughter in tears

**Article history:** received – 05.09.2024; accepted − 18.09.2024

## Giriş / *Introduction*

Dünya ədəbi-bədii təcrübəsində satira və satirik gülüş ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-əxlaqi məsələlərə münasibət bildirilməsində ən əlverişli, təsirli vasitələrdən birinə çevrilən anlayışlar sırasında öncül mövqe qazanmaqdadır. Əslində, bunu sənətkarın gerçəkliyə realist yanaşmasının bir təzahürü kimi də dəyərləndirmək olar.

Satirik gülüşün və yanaşmanın ilkin nümunələrinə şifahi xalq ədəbiyyatının çeşidli janrlarında rast gəlinməkdədir. Azərbaycan folklorunda komizm müstəsna dərəcədə yer almaqla bərabər, eyni zamanda adi ünsiyyət və cəmiyyətdaxili münasibətlər sisteminin çərçivələrini aşaraq daha ciddi ictimai mətləbləri ifadə etmək, geriliyə, zülm və istismara, hakim üsul-idarənin özbaşınalığına qarşı mübarizə silahına çevrilmişdir. Gerçəkliyə münasibət, cəmiyyətdaxili münasibətlərdə baş verən neqativ hallara tənqidi yanaşmanın, ironiyanın, sərt etirazların, kəskin sarkazmların, eyhamların, bəzən açıq, bir çox hallarda isə sətiraltı mənalarda ifadə olunmasının böyük ədəbi-tarixi ənənəsi mövcuddur. Fikrin eyham və müəmmalardan istifadə edilməklə işlənilməsini doğuran səbəblər haqqında elmi mənbələrdə geniş məlumatlara rast gəlinməkdədir. Buna Ezop dili də deyilir: "**Ezop dili –** bu ifadə qədim Yunanıstanda öz fikirlərini müstəqim, açıq deyə bilmədiyinə görə məcazi təmsillər yazan finikiyalı kölə Ezopun (e.ə. VI-V əsrlər) adı ilə bağlıdır. Xalqa zidd olan hər hansı bir ictimai quruluşda qabaqcıl yazıçının öz əsərini senzuradan və özünü hökumətin təzyiqlərindən qorumaq üçün müraciət etdiyi məcazi dil; məcburiyyət nəticəsində qəsdən üstüörtülü, dumanlı bir şəklə salınmış, işarələr və kinayələrlə dolu ifadə tərzi" [2, s.59] kimi elmi ədəbiyyatlarda təfsir olunur. Filologiya elmləri doktoru, professor, estetika sahəsində sanballı tədqiqatların müəllifi Yuri Borev vaxtilə satiranın, xüsusən gülüşün səciyyəvi cəhətlərinə toxunaraq yazırdı: "Gülüş sirayətedicidir və kollektivçiliyə "həvəs" göstərir. Bu baxımdan bütün sənətlər – teatr, kino, sirk – komiklik üçün çox yararlıdır. Gerçəklikdəki komikliyi əks etdirməyə qadir olmayan yeganə incəsənət növü – arxitekturadır. Komik bina və ya hər hansı tikili tamaşaçı üçün də, qonaq üçün də, sakinlər üçün də bəlaya çevrilə bilər. Arxitektura cəmiyyətin ideallarını bilavasitə ifadə etdiyi üçün öz spesifikasına görə birbaşa tənqid edə, inkar edə bilmir və deməli, gülə də bilmir. *İncəsənətdəki komikliyin məzmununda həmişə inkişaf etmiş tənqidi element var*. *Gülüş tənqidin emosional cəhətdən dolğun estetik formasıdır*" [1, s.74 (70-87)].

## Əsas hissə / *Main Part*

İncəsənətin bütün növlərində, o cümlədən bədii ədəbiyyatda satiranın işlənilmə mövqeyinin praktik baxımdan mövcud olmasına baxmayaraq, onun nəzəri aspektdən araşdırılması, tipoloji təsnifatının aparılmaması ədəbiyyatşünaslıqda müəyyən fikir ayrılıqlarının yaranmasına gətirib çıxarmışdır. Keçən əsrin əllinci illərinin sonlarına kimi satiranı, bir üslub tərzi kimi nəzəri ədəbiyyatşünaslıqda təfsiri belə bir yanlış müddəanın irəli sürülməsinə rəvac vermiş, bu mübahisələrin çözülməsi uzun müddət səngiməmişdir. Əslində, satiranı ədəbiyyat nəzəriyyəsinin bir kateqoriyası və ayrıca ədəbi növ kimi təqdim edən müzakirələr, polemikalar nəticə etibarilə əsl həqiqətin müəyyənləşdirilməsinə mühüm zəmin hazırlamış oldu, daha dəqiq demiş olsaq, ayrı-ayrı sənətkarların yaradıcılıq irsində satira və komik ünsürlərin tədqiq və araşdırılma təcrübəsi belə konkret nəticələrə gəlməkdə müstəsna rol oynadı.

Azərbaycan şifahi xalq yaradıcılığından başlamış, yazılı ədəbiyyat da daxil olmaqla, zəngin bir ədəbi-bədii təcrübədə satiraya, satirik gülüşə əhəmiyyətli dərəcədə yer ayrılmasını təcrübi

baxımdan təsdiqləyən nümunələr mövcuddur. Ancaq Azərbaycan ədəbiyyatşünaslığında satiranın təşəkkülü, inkişaf meyilləri yalnız ayrı-ayrı sənətkarların ədəbi irsi əsasında aparılmış, satiranın elmi-nəzəri istiqamətdən geniş və əhatəli tədqiqi demək olar ki, diqqətdən kənarda qalmışdır.

Filologiya elmləri doktoru, professor Kamran Məmmədovun keçən əsrin əllinci illərindən başlayan silsilə tədqiqatlarında bu cəhət özünü qabarıq nümayiş etdirməkdədir. Alimin vaxtilə qələmə aldığı "Ə.Haqverdiyev" (1950, 1955, 1959, 1970), "Q.Zakir" (1957), "N.Vəzirov" (1964) monoqrafiyaları əslində bu qəbildən olan tədqiqatlardır. Ancaq bununla yanaşı, Kamran Məmmədov adı sadalanan tədqiqatlarda satiranın Azərbaycan ədəbi-bədii düşüncəsində əhəmiyyətli yer və mövqe qazanmasını doğuran ictimai-siyasi ziddiyyətlərə, mənəvi-əxlaqi problemlərə, zülm və istibdada bir küll halında mövcud tarixi şəraitə münasibət bildirməyi diqqət mərkəzində saxlamışdır. Belə bir yanaşmada ayrı-ayrı qələm sahiblərinin yaradıcılığında real gerçəkliyə, cəmiyyətə və cəmiyyətdaxili münasibətlərdə baş verən aşınmalara münasibətdə sənətkar mövqeyinin fəallığı real faktlar və ədəbi nümunələr əsasında təhlilə yönəldilir. Bu mənada, adları bir qədər əvvəl çəkilən monoqrafiyalarda satiranın ədəbiyyatın ayrı-ayrı ədəbi növ və janrlarda inkişaf tendensiyasını izləmək cəhdləri özünü qabarıq şəkildə nümayiş etdirir. Şübhəsiz ki, satiranın inkişaf meyillərinin belə bir tədqiq məcrasında araşdırılması yaradıcılıq təcrübəsində formalaşan mühüm xüsusiyyətləri üzə çıxarır, sənətkarı baş verən hadisələrin sadəcə seyrçisi yox, onu həssaslıqla duyan bir üzvü kimi təqdim etməyə yetərincə zəmin yaradır.

Kamran Məmmədovun keçən əsrin yetmişinci illərinin ikinci yarısına qədərki elmi axtarışlarını səciyyələndirən əsas prinsipial məqamları belə xülasə etmək olar: satiranın milli ədəbi-tarixi təcrübədə yerini və mövqeyini üzə çıxarmaq, sənətkarın yaradıcılıq fərdiyyətinə bu prizmadan yanaşmaq. Sözsüz ki, alimin gərgin elmi axtarışlarının əhəmiyyətini azaltmadan belə bir qənaətə gəlmək olar ki, satiranın nəzəri baxımdan təhlili bu tədqiqatlarda istənilən səviyyədə görüntüyə gətirilmir, müəllif heç belə bir problemin həlli yollarının müəyyənləşdirilməsini də qarşısına bir məqsəd kimi də qoymurdu. Çünki elmi-nəzəri fikirdə satira ilə bağlı hələ tam şəkildə mübahisələrə aydınlıq gətirilməmişdi. Onun təsnifat prinsipləri ətrafında ciddi mübahisələr davam etdirilirdi.

Bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, Kamran Məmmədovun tədqiqatlarında satiranın konkret bir ictimai-tarixi şəraitdəki inkişaf təkamülü izlənirlir, sadə xalq kütlələrini zülm və istibdad boyunduruğu altında əzən hakim üsul-idarəyə qarşı qüvvətli bir vasitə olmaq xüsusiyyəti ön plana çəkilirdi. Ancaq yetmişinci illərin ikinci yarısından başalayaraq alimin satira və satirik gülüş haqqında yeni konseptual elmi mülahizələr irəli sürülən monoqrafiyaları belə bir boşluğu doldurmağa yönəldilən cəhd kimi diqqəti cəlb edir. Belə ki, keçən əsrin yertmişinci illərinin ikinci yarısında nəşr olunan "XIX əsr Azərbaycan şeirində satira" monoqrafiyasında və səksəninci illərin sonlarında işıq üzü görən "XX əsr Azərbaycan gülüşü (yaxud bir məclisdə on iki kişinin söhbəti)" kitabında müəllif illərlə qazanılan təcrübi müddəalardan çıxış edərək qismən nəzəri mülahizələr yürütməyə də cəhd göstərir. Azərbaycan satirasının belə bir müstəvidə təhlilə yönəldilməsi alimin tədqiqatlarına yeni yanaşmalar gətirir, unudulan, ədəbi irsi kifayət qədər araşdırılmayan sənətkarların yaradıcılığına elmi-nəzəri münasibəti aktual bir məcraya yönəldir. Müəllif satiranın Azərbaycan ədəbiyyatında ədəbi-tarixi inkişafına nəzər yetirərkən şifahi xalq yaradıcılığından başlamış yazılı ədəbiyyat da daxil olmaqla, inkişaf təkamülünə xas olan ədəbi növ və janr müxtəlifliyini müəyyənləşdirən belə bir ümumiləşdirici qənaətə gələrək yazırdı: "Satiranın Azərbaycan şifahi və yazılı ədəbiyyatında çox müxtəlif janrları mövcuddur: satirik aforizm və idiomlar, satirik atalar sözü və məsəllər, atmacalar, qaravəlli, lətifə, satirik nağıl, satirik bayatı, təmsil, həcv, bəhri-təvil, kuplet, meyxana, zərbə-zorba, intermediya, məzhəkə, satirik rübai, satirik qəzəl, taziyanə, parodiya, felyeton, pamflet, komediya, satirik miniatür, satirik hekayə, satirik povest və roman, satirik poema və s." [3, s.3].

Bu xarakterik cəhətin təsdiqini monoqrafiya haqqında vaxtilə bəhs edən müəlliflərin rəylərində də görmək mümkündür. AMEA-nın müxbir üzvü, professor Kamran Əliyev "Azər-

baycan satirasının tədqiqi" adlı resenziyasında müəllifin ədəbi-tarixi materiallara istinadla elmi-nəzəri ümumiləşdirmələrin vəhdətinin nəticəsi kimi meydana gələn monoqrafiyanın məziyyətlərindən bəhs edərkən bu cəhətə toxunaraq yazırdı: "Monoqrafiyada XIX əsr Azərbaycan yazıçılarının satiraya münasibəti həm tənqidi, həm də bədii irsin materialları əsasında şərh edilmişdir. Satiranın ilk nəzəri-estetik əsaslarını yaradan M.F.Axundova geniş yer verilmiş, onun bədii və elmi fəaliyyəti arasındakı paralellik məhz bu keyfiyyətlə də təsdiq edilmişdir. Tənqidin mahiyyəti, gülüşün xarakteri, satiranın islahedicilik rolu Zakir, Vazeh, Şakir, Nadim, Bakıxanov yaradıcılığından gətirilmiş nümunələrlə, habelə "Əkinçi" qəzetinin səhifələrindəki dəyərli məqalələrlə də izah edildiyini müəllif inandırıcı faktlarla sübut edir. Hər şeydən qabaq belə bir mühüm fikir meydana çıxır ki, XIX əsr Azərbaycan ədəbiyyatında satiraya elmi münasibət göstərmək və onun praktik nümunələrini yaratmaq bütöv əsri əhatə edir" [4, s.93-94 (92-94)].

Kamran Məmmədovun satira sahəsindəki elmi axtarışlarına kifayət qədər yaxından bələd olan mərhum alimin akademik Kamal Talıbzadə ilə müştərək qələmə aldığı "Görkəmli tədqiqatçı" adlı məqaləsində konkret bir araşdırmanın – "XX əsr Azərbaycan şeirində satira" monoqrafiyasında bir problem kimi qoyulan müddəalar belə bir araşdırma müstəvisində dəyərləndirilir: "K.Məmmədovun realistlərə dair tədqiqatlarının sistemliliyi satira problemlərinin təhlilində də özünü göstərir. Alimin bu problemə olan marağı öz başlanğıcını qəzet və jurnal məqalələrindən götürərək, "Qasım bəy Zakir" monoqrafiyasında, Ə.Haqverdiyevin satirik əsərlərinin tədqiqində yeni imkanlar qazanmış və "XIX əsr Azərbaycan şeirində satira" monoqrafiyası ilə müəyyən mərhələyə çatmışdır" [5, s.146-147 (144-149)].

Bir küll halında Kamran Məmmədovun satira sahəsində araşdırmalarının ilkin başlanğıcı alimin ədəbiyyat tarixçiliyi istiqamətində sistemli fəaliyyətindən kənarda təsəvvür edilə bilməz. Belə bir yaradıcılıq məziyyətini alimin satiraya həsr olunan son tədqiqatlarında da görmək olur. Müəllifin satirik gülüşün XX əsrdəki inkişaf meyilləri barədə konseptual yanaşmalarında belə bir qənaət ön plana çəkilir: "XX əsrin əvvəllərində Azərbaycan gülüşü dedikdə, əsasən bu dövrdəki satiranı nəzərdə tuturuq. Həmin satira istər şeirdə, istər bədii nəsr və publisistikada, istərsə də dramaturgiyada olsun, əsrin ilk on ilində özünün ən yetkin, ən kamil mərhələsinə qədəm qoymuş, məşhur "Molla Nəsrəddin" satirik ədəbi məktəbi yaranmış, bu məktəbin M.Ə.Sabir, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ə.Nəzmi, M.Ə.Möcüz kimi nümayəndələri ilə yanaşı, demokratik ədəbiyyata xidmətdə satira və gülüşdən kəsərli silah kimi istifadə edən M.Ə.Talıbov, Z.Marağayi, N.Vəzirov, N.Nərimanov, Ü.Hacıbəyov, Y.V.Çəmənzəminli kimi fədailəri də olmuşdur" [6, s.3].

Maraq doğuran bir cəhət də odur ki, əslində, bu tipli tədqiqatlarda müəllif satiranı çeşidli ədəbi növ və janrlarda araşdırmaq imkanlarını da əyani şəkildə gerçəkləşdirməyə nail olur.

## Nəticə / *Conclusion*

Beləliklə, Kamran Məmmədovun araşdırmalarında XIX və XX əsrlərdə satiranın Azərbaycan ədəbi-bədii təcrübəsində fəal yaradıcılıq təmayülü kimi formalaşması haqqında yetkin təsəvvür yaradılır, onun elmi-nəzəri aspektdə təhlilinə əhəmiyyətli dərəcədə yer ayrılır.

## Ədəbiyyat / *References*


1. Borev, Y. Estetika. Tərcümə edənlər: Yaşar Qarayev, Rahid Xəlilov. Redaktoru: Fəlsəfə elmləri doktoru Aslan Aslanov. – Bakı: Gənclik, 1980. – 223 s.
2. Ədəbiyyatşünaslıq terminləri lüğəti. Tərtib edən: Əziz Mirəhmədov, elmi redaktoru M.Aslanov. – Bakı: Maarif, 1978. – 59 s.

3. Əliyev, K.İ. Görkəmli tədqiqatçı (Kamal Talıbzadə ilə birlikdə), Ədəbiyyatşünaslıq və ədəbiyyatşünaslar. Redaktoru: Arif Əmrahoğlu, filologiya üzrə fəlsəfə doktoru. – Bakı: Elm və təhsil, 2013. – 274 s.
4. Əliyev, K.İ. Azərbaycan satirasının tədqiqi. "Ruhum da Şuşadan nigaran qalıb" kitabında. Toplayıb tərtib edən və ön sözün müəllifi: filologiya üzrə fəlsəfə doktoru Məmmədova Dilarə Mustafa qızı. Elmi redaktoru: Şirindil Aışanlı. Rəyçilər: İslam Ağayev, filologiya elmləri doktoru, professor; Alxan Bayramoğlu, filologiya elmləri doktoru, professor. – Bakı: Elm, 2010. – 292 s.
5. Məmmədov, K.D. XIX əsr Azərbaycan şeirində satira. Redaktoru: Hüseyn İsrafilov. – Bakı: Elm, 1975. – 276 s.
6. Məmmədov, K.D. XX əsr Azərbaycan gülüşü (yaxud bir məclisdə on iki kişinin söhbəti). Redaktoru: filologiya elmləri doktoru Teymur Əhmədov. – Bakı: Yazıçı, 1989. – 312 s.

## Тенденции развития азербайджанской сатиры в исследованиях Кямрана Мамедова

**Кёнуль Гусейнова**
Университет «Одлар Юрду»
E-mail: konul1771@mail.ru

**Резюме.** В статье рассматриваются основные принципы сатирического научного исследования профессора Кямрана Мамедова. Во-первых, в исследованиях ученого в области литературной историографии акцентируется внимание на особенностях творчества конкретных литературных деятелей.

С научно-теоретической точки зрения спорные аспекты литературоведения также входят в число вопросов, находящихся в статье в центре внимания. При таком подходе систематически рассматривается эволюция развития сатиры, рассмотренная Кямраном Мамедовым, особенно место и положение сатиры в азербайджанской литературе от фольклорных текстов к письменным примерам.
С этой точки зрения концептуальный подход автора к таким творческим вопросам, как место и позиция сатиры в произведениях таких поэтов, как Гасым бек Закир, Сеид Азим Ширвани, Мирза Алекпер Сабир, Баба бек Шакир, Мирза Бахыш Надим, Алигулу Гамгюсар, Мирза Али Моджуз оценивается с уровня достижений современного литературоведения.

Помимо научных выводов и мнений ученого о месте и лидирующем положении сатиры в азербайджанской поэзии, также акцентируется развитие этой тенденции в других литературных видах и жанрах в области прозы и драматургии, а также анализируются и на таком уровне исследования, включающие обобщающие теоретические положения.
**Ключевые слова:** сатира, сатирический смех, комедия, комическая ситуация, преобразовательный характер смеха, смех сквозь слёзы